# Tarixi Qələbəmizdə ölkəmizdəki bütün xalqların payı var

*Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**




**Bu sətirləri qələmə almazdan əvvəl iki mühüm faktı yada salmaq istəyirəm. Birinci fakta özüm şahidlik etmişəm. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda görkəmli bəstəkar, Xalq artisti, Dövlət Mükafatı laureatı Tofiq Quliyevin abidəsinin açılışını etdi. Təxminən bir aydan çox idi ki, mən həmin abidənin yanından keçirdim və hər dəfə oradan keçəndə açılış mərasimini gözləyirdim. Nəhayət, həmin tədbir baş tutdu və mən elə o gün görkəmli bəstəkarın abidəsini ziyarət etdim.**

…Abidənin yanındakı məlumat lövhəsini mənim kimi başqa üç-dörd nəfər də oxuyurdu. Bu məqamda hündürboylu, slavyan görkəmli bir adam da yaxınlaşdı və sanki əzizinin səfərdən qayıtmasına sevinən şəxs kimi uca səslə dedi: "Qayıdışın mübarək, Tofik Alekperoviç!" Hamının diqqəti bu rusdilli adamın sevincində, onun diqqəti isə bəstəkarın abidəsində idi. Deyəsən, Tofiq Quliyevi yaxından tanıyan adam, bəlkə də dostu idi. O məqamda fəxr etdim ki, mənim ölkəm həmişə çoxmillətli olub və indi də belədir.

İkinci faktı isə Qusar rayonundan redaksiyamıza Azərbaycanda yaşayan bütün xalqların təmsilçilərinin bu ölkəni özlərinin Vətəni hesab etdiyi barədə geniş məqalə göndərmiş el ağsaqqalı Mayıl Bağırovun sətirlərində oxudum. Ləzgi millətinin təmsilçisi olan bu ziyalı həmvətənimiz Qusar gənclərinin həm birinci, həm də ikinci Qarabağ müharibələrində göstərdiyi rəşadətdən, onların xidmətinin dövlət tərəfindən yüksək qiymətləndirilməsindən əhatəli şəkildə söz açmaqla yanaşı, onların ötən əsrin əvvəllərində ermənilərin Qubada törətdiyi soyqırımının qarşısının alınmasındakı mübarizəsindən də konkret tarixi faktlarla söz açırdı.

**(ardı 2-ci səhifədə)**

# Tarixi Qələbəmizdə ölkəmizdəki bütün xalqların payı var

(Əvvəli 1-ci səhifədə)



Bu iki faktı xatırlatmaqda məqsədim Azərbaycanın təkcə bu gün deyil, tarixən çoxmillətli ölkə olduğunu söyləyən siyasətçi və mütəxəssislərin arqumentlərini təsdiq etməkdir. Azərbaycan xalqının 44 günlük İkinci Qarabağ müharibəsindəki tarixi Qələbəsinin əsas təməllərindən biri də məhz ölkəmizin çoxmillətli olması idi. Ekspertlərin fikrincə, ərazilərimizin işğalı ilə heç zaman barışmayan və Zəfərə, qalibiyyətə susamış xalq bir yumruğa çevrilərək düşmənin başı üzərində ildırım kimi çaxmışdı. Dövlət başçımızın dediyi kimi, ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri fəxarətlə "mən, azərbaycanlıyam" deyərək, qəsbkarı torpaqlarımızdan qovub çıxartmışdı.

Prezident İlham Əliyev həm 44 günlük müharibə dövründə dünya mətbuatının təmsilçilərinə verdiyi müsahibələrində, həm də müharibədən sonrakı əksər çıxış və nitqlərində dönə-dönə xatırladıb ki, erməni faşizminə layiq olduğu yerin göstərilməsində ölkəmizdə yaşayan bütün xalqların təmsilçilərinin xüsusi payı vardır. Həmin tarixi zəfərimiz barədə qələmə alınan çoxsaylı qəzet-jurnal məqalələrinin böyük əksəriyyətində qeyd olunur ki, İkinci Qarabağ müharibəsindəki Qələbədə Azərbaycan xalqının hər bir övladının payı oldu. Xüsusilə vurğulanır ki, Azərbaycan cəmiyyətinin hər bir üzvü bu qələbədə özünəməxsus rolu olması üçün gecə-gündüz əzmlə çalışdı. Yəhudilər də, ləzgilər də, talışlar da, avarlar da, ruslar da, ümumiyyətlə, hamı yaralı yurdumuzun müdafiəsinə qalxmışdı.

Ekspertlərin fikrincə, Vətən müharibəmizdəki zəfərin təməlində dayanan bir sıra amillərlə – ordunun maddi-texniki bazasının müasirləşdirilməsi, hərbçilərin peşəkarlığının yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi və ən nəhayət, ölkənin iqtisadi qüdrətinin artırılması ilə yanaşı, ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi də dayanırdı. Məhz bu ideyanın nəticəsi idi ki, xalqımız Şuşada 30 illik fasilədən sonra "Xarıbülbül" Musiqi Festivalı ənənəsini bərpa edə bilmişdir. Həmin tədbirin əsas gözəlliklərindən biri də orada ölkəmizin müxtəlif bölgələrində yaşayan xalqların folklor təmsilçiləri iştirak edirdilər. Onlar öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq, burada yaşayan hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırmışdılar.

Bu sətirləri müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin bir neçə beynəlxalq tədbirin tribunasından qətiyyətlə, fəxr edərək səsləndirdiyi bir fikirlə tamamlamaq istəyirik: "Azərbaycanın ən böyük sərvətlərindən biri də ölkədə bütün xalqların, bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşamasıdır".

Bəli, biz bir ailəyik. İndiyədək bu ailənin hansısa bir üzvü ümumi problemin həllindən heç zaman kənarda qalmayıb və inanırıq ki, bundan sonra da qalmayacaq. Məhz buna görə də Zəfər daim bizimlə olacaq.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**